Azərbaycan

16 mart 2024-cü il.- № 59.- S.5.

RƏSMİ DÖVLƏT QƏZETİ

# Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin 9-cu üçtərəfli görüşü keçirilib

**Martın 15-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin 9-cu üçtərəfli görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə açılış nitqi ilə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov təməlində tarixi qonşuluq və dostluq əlaqələri dayanan Azərbaycan, Gürcüstan və Türkiyə arasında mövcud regional əməkdaşlığın beynəlxalq hüququn ərazi bütövlüyü, suverenlik kimi təməl prinsiplərinə əsaslandığını diqqətə çatdırıb.

Bu istiqamətdə 3 ölkə arasında mövcud yüksəksəviyyəli dialoqun, parlamentlərarası, habelə müxtəlif dövlət qurumları arasında əlaqələrin regional və beynəlxalq platformalar çərçivəsində əməkdaşlığa töhfə verdiyi qeyd olunub.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, kənd təsərrüfatı, su resurslarının səmərəli idarəçiliyi, yüksək texnologiyalar, turizm, humanitar və digər istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin mövcudluğu məmnunluqla qeyd edilib.

Bölgənin alternativ enerji, habelə nəqliyyat-kommunikasiya potensialı nəzərə alınaraq, Xəzər və Qara dənizləri hövzələrini birləşdirən uğurlu enerji layihələrinin bağlantılar, "yaşıl enerji" sahələrində təşəbbüslər ilə davam etdirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, minatəmizləmə fəaliyyəti, həmçinin Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh gündəliyi barədə ətraflı məlumat verib.

Azərbaycan torpaqlarının erməni işğalından azad olunmasından, habelə bütün ərazilərimizdə suverenliyimizin tam bərpasından sonra bölgədə sülh üçün tarixi imkanın yarandığını diqqətə çatdıran C.Bayramov bu istiqamətdə beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanı revanşist ritorikaya təşviq edən addımlardan çəkinilməsinin, habelə normallaşma prosesi çərçivəsində birbaşa ikitərəfli danışıqların dəstəkləməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə 3 ölkə arasında mövcud çoxşaxəli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, regional əməkdaşlığın perspektivləri, digər ikitərəfli və çoxtərəfli məsələlər müzakirə olunub.

Sonda üçtərəfli görüşün yekunlarına dair Bakı Bəyannaməsi imzalanıb, təşkil olunmuş mətbuat konfransı çərçivəsində nazirlər bəyanatlarla çıxış ediblər.